No: 01 2026
https://doi.org/10.64400/ea26-01-01
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

**TARİX**

# 2026-CI İLİN ŞƏHƏRSALMA VƏ MEMARLIQ İLİ ELAN EDİLMƏSİ İLƏ ƏLAQƏDAR QEYDLƏR

**Hacıfəxrəddin SƏFƏRLİ**[1], **Samirə TURAN**[1]
[1]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
**Yazışılan müəllif: seferli949@mail.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:**
Azərbaycan, Naxçıvan, dövlət, şəhər, şəhərsalma, memarlıq.

**XÜLASƏ**
Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci ildə imzaladığı Sərəncama əsasən 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Məqalədə Azərbaycanda şəhərsalma və memarlıq sahəsində minilliklər ərzində yaranan ənənələr və dövlət başçısının imzaladığı Sərəncamdan irəli gələn vəzifələr haqqında bəhs olunur. Qeyd edilir ki, şəhərsalma və memarlıq sahəsində mövcud olan ənənələr bəzən müəyyən açınmalara məruz qalsa da, görkəmli dövlət xadimi Heydər Əliyev bunun qarşısını almış, onların qorunub saxlanması və gələcək nəsillərə çatdırılması sahəsində mühüm tədbirlər həyata keçirmişdir. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəhindən uğurla davam və inkişaf etdirilir. Dövlət başçısının imzaladığı Sərəncam şəhərsalma və memarlıq sahəsində yaradılan mədəni irsə dövlət səviyyəsində verilən dəyər və müasir şəhər mühitinin formalaşmasına diqqət və qayğının ifadəsi kimi dəyərləndirilir.

## GİRİŞ

Çox qədim tarix və mədəniyyətə, dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı minilliklər boyu çox zəngin mədəni irs yaratmışdır. Bu irsin tərkibində şəhərsalma və memarlıq ənənələri mühüm yer tutur. Yola saldığmız və artıq tarixə qovuşmuş çoxminillik tariximizdə zaman keçdikcə bu irsin böyük bir hissəsi müxtəlif səbəblərdən məhv olaraq (məsələn, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonundakı Orta əsr Kiran şəhəri kimi) sıradan çıxsa da, bütün çətinliklərə baxmayaraq onların böyük bir hissəsi qorunub saxlanmış və müasir dövrədək gəlib çatmışdır. Çox yaxşı haldır ki, XX yüzilliyin müəyyən zaman çərçivəsində bir sıra çətinliklərlə üzləşən, hətta təqib olunan bu irs Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu yaxınlarda biz bu qayğının yeni və parlaq bir nümunəsinin şahidi olduq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 dekabr 2025-ci ildə "2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında" sərəncam imzaladı (Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli"..., 2025).

Məlumdur ki, Azərbaycan xalqı şəhərsalma və memarlıq sahəsində böyük və güclü ənənələrə malikdir. Bu ənənələrin yaranmasının tarixi minilliklərlə ölçülür. Artıq elmdə sübut olunmuşdur ki, Azərbaycan, xüsusilə onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan bölgəsi ilkin şəhər mədəniyyətinin yarandığı və ətraf ərazilərə yayıldığı mərkəz olmuşdur. Beş min il bundan əvvəl bu ərazidə Naxçıvan şəhərinin timsalında meydana gələn ilkin şəhər mədəniyyəti digər ölkələrdə də şəhərlərin yaranmasında, başqa sözlə desək şəhərləşmə prosesinin inkişafında mühüm rol oynamışdır. Mühüm ticarət yollarının keçdiyi bir ərazidə böyük və gözəl şəhərlərin meydana gəlməsində və inkişafında, Azərbaycan-türk memarlıq ənənələrinin xidməti və təsiri xüsusilə qeyd olunmalıdır. Nəticədə bütün Azərbaycan ərazisində memarlıq yüksək səviyyədə inkişaf etmiş, hətta burada möhtəşəm memarlıq məktəbləri (Aran, Şirvan-Abşeron, Naxçıvan və s.) yaranmışdır. Bu memarlıq məktəblərində dünya memarlıq tarixinə dəyərli töhfə olan çoxlu möhtəşəm abidələr yaradılmış və həmin abidələri ucaldan görkəmli memarlar yetişmişdir.

Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan məktəbinin timsalında biz bunu aydın şəkildə görürük. Bu məktəb memarlıq tariximizə Əcəmi Əbubəkr oğlu Naxçıvani (XII əsr), Əmirəddin Məsud Naxçıvani (XII əsr), Xacə Cəmaləddin (XII-XIII əsrlər), Əhməd Əyyub oğlu

Əl-Hafiz Naxçıvani (XIII-XIV əsrlər) və başqaları kimi dahi memarlar bəxş etmişdir. Bu memarların içərisində məktəb yaradanlar, ucaltdıqları abidələr vasitəsilə ətraf ölkələrin memarlığına güclü təsir göstərənlər, iz buraxanlar da olmuşdur. Məsələn, Naxçıvan memarlıq məktəbinin yaradıcısı sayılan Əcəmi Naxçıvani yaradıcılığınnın təsir dairəsi Anadolu, İran, Türküstan və s. əraziləri əhatə etmişdir. Qeyd etmək yerinə düşər ki, məhz belə bir görkəmli sənətkar olduğu üçün, hazırda Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 900 illik yubileyi UNESCO səviyyəsində qeyd olunmaqdadır.

Əcəmi Naxçıvani və digər Azərbaycan memarlarının yaratdığı möhtəşəm abidələr sayəsində Azərbaycanda memarlıq və şəhərsalma ənənələri daha da ikişaf etmiş və nəsidən-nəsilə ötürülərək qorunub saxlanmışdır. Sovet hakimiyyəti illərində (1920-1991-ci illərdə) ögey münasibət ucbatından bu ənənələr qəsdən müəyyən qədər aşınmalara məruz qalmışdır. Ancaq görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə (1969-1982-ci illərdə) bu açınmaların qarşısı qətiyyətlə alınmışdır. Məsələn, respublikanın rəhbəri kimi Heydər Əliyev orta əsr şəhərsalma ənənələrini özündə saxlayan Ordubad şəhərində yeni tikintilər zamanı onun tarixi hissəsinin zərər çəkməsi haqqında məlumat əldə edən kimi dərhal bunun qarşısını almışdır. Həm də, bunun qanunu əsaslrını yaratmaq üçün onun tövsiyəsi ilə Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il tarixli qərarı ilə Bakı şəhərindəki İşərişəhər, Şuşa və Ordubad şəhərlərinin tarixi hissəsi "Qoruq şəhər" elan edilmişdir (Səfərli H., 2025, s. 10). Beləliklə, bu şəhərlərin dövlət tərəfindən qorunması təmin olunmuşdur.

Bütün həyatı boyu keçmiş irsimizə diqqət və qayğı ilə yanaşan Heydər Əliyevin Azərbaycana istər birinci, istərsə də ikinci rəhbərliyi dövründəki fəaliyyətində bu qəbildən olan işlər mühüm yer tutmuşdur. Məhz bütün bunları nəzərə alaraq "Şəhərsalma və Memarlıq İli" əlaqədar imzalanan Prezident Sərəncamının preambula hissəsində qeyd olunmuşdur ki, "Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur" (Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli"..., 2025).

Həyatın bütün sahələrində alternativi olmayan Heydər Əliyev kursunu inamla və uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də keçmiş irsin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması sahəsində çox məqsədyönlü və uğurlu addımlar atmış və atmaqdadır. Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də,ölkədə bu çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və təbliğinin gücləndiriməsi məqsədi ilə imzalanan 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması lə əlaqədar Sərəncam da bu sahədə atılan ən böyük, vacib və əhəmiyyətli addımlardan biridir.

Burada qeyd etmək yerinə düşər ki, şəhərsalma və memarlıq məsələsi Azərbaycan Respublikası Prezidentinin daima diqqət mərkəzində olan məsələlərdən biridir. Bunu onun son vaxtlar Naxçıvan Muxtar Respublikasının timsalında bu istiqamətdə imzaladığı bir sərə Sərəncamlar da təsdiq edir. Belə ki, Dövlət başçısı 21 fevral 2024-cü ildə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında ("Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması …, 2024), 22 may 2025-ci ildə Naxçıvan şəhərində yerləşən Möminə xatın türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında (Naxçıvan şəhərində yerləşən Möminə xatın türbəsi ..., 2025), 18 sentyabr 2025-ci ildə Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında (Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında ..., 2025), 30 dekabr 2025-ci ildə Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında (Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında …, 2025) Cərəncam imzalamışdır. Bu Sərəncamların demək olar ki, hamısı Azərbaycan xalqının şəhərsalma və memarlıq ənənələrinə, xalqın içərisindən çıxmış görkəmli çəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsinə, bütövlükdə keşmiş mədəni irsinə yüksək dövlət qayğısının parlaq təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan bu Sərəncam Azərbaycanda mövcud şəhərsalma və memarlıq ənənələrinin qorunub saxlanmasını, inkişaf

etdirilməsini və yeni çalarlarla zənginləşdirilməsini təmin edəcək yüksək dövlət sənədidir. Bildiyimiz kimi, müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsində Zəfər tarixini yazdıqdan sonra işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı şəhərsalma və quruculuq işlərinə başlanmışdır. Bu işlər zamanı xalqımızın şəhərsalma və memarlıq ənənələrindən geniş şəkildə istifadə olunmaqla yanaşı dünya şəhərsalma və memarlığının yeni, müasir və mütərəqqi nailiyyətləri də bacarıqla, məqsədyönlü şəkildə tətbiq olunur. Nəticədə keçmiş irslə müasirliyin sintezi, vəhdəti sayəsində gözəl memarlıq abidələrinin daxil olduğu müasir yaşayış məskənləri yaradılır.

Burada qeyd etmək yerinə düşər ki, şəhərsalma və memarlıq dedikdə heç də, təkcə şəhər tipli yaşayış məskənlərinin salınmasında yeni binaların, memarlıq nümunələrinin inşasını nəzərdə tutmaq düzgün olmazdı. Bunu həm də, ilk növbədə xalqımızın minilliklər ərzində yaratdığı tarixi-mədəni irsin qorunması, müasir memarlıqda tətbiqi, bu sahədə əldə olunan nailiyyətlərin gələcək nəsillərə çatdırılması kimi də başa düşmək və qəbul etmək lazımdır. Ona görə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Şəhərsalma və Memarlıq İli” ilə əlaqədar imzaladığı bu Sərəncam müasir Azərbaycanın şəhərsalma strategiyasında yeni mərhələnin başlanğıcı kimi çox böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Respublikasının müasir inkişaf mərhələsində dövlət başçısı tərəfindən bu məsələnin gündəliyə çıxarılması ölkəmizdə şəhərsalma və memarlıq sahəsində əsrlər boyu yaradılan mədəni irsə dövlət səviyyəsində necə böyük dəyər və önəm verilməsinin, həmçinin müasir şəhər mühitinin formalaşdırılmasına və şəhər mühitinin daha da gözəlləşməsinə diqqət və qayğısının ifadəsidir.

Aid təşkilatların, xüsusilə uyğun tədqiqatçıların qarşısında böyük vəzifələr qoyan bu Sərəncamdan irəli gələn vəzifələrin uğurlu həlli şəhərsalma və memarlıq sahəsində mövcud ənənələrin daha da inkişafına, yeni şəhər və qəsəbələrin planlaşdırılması və layihələndirilməsi zamanı onların nəzərə alınmasının vacib olmasını diqtə edir, ön plana çıxarır. Həmçinin tikintilərin aparılması zamanı dünya memarlığının ən son nailiyyətlərinin mövcud yerli ənənələr ilə uyğunlaşdırılaraq tətbiq olunması onların yeni çalarlar əxz etməsinə və daha da zənginləşməsinə səbəb olacaqdır.

Yekun olaraq qeyd etmək yerinə düşər ki, Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramının İcraiyyə Şurasının Keniyanın paytaxtı Nayrobidə keçirilən III sessiyasında 13-cü Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilmişdir. May ayının 17-22-də baş tutacaq və təxminən 25 min iştirakçının gələcəyi tədbir çərçivəsində həm Azərbaycan, həm də xarici ölkələrdən maraqlı tərəflərin – dövlət rəsmiləri, QHT-lər, bu sahədə fəaliyyət göstərən mütəxəssislər, ekspertlər, özəl sektorların nümayəndələri bir araya gələrək, geniş fikir mübadiləsi apararaq yeni bilik və təcrübə ilə paylaşmaq imkanı əldə edəcəklər. Bu önəmli və möhtəşəm tədbirin 2026-cı ildə Bakı şəhərində keçirilməsi Azərbaycan hökumətinin şəhərsalma sahəsində apardığı ardıcıl və məqsədyönlü islahatlar, ölkədə bu sahədə uğurla həyata keçirilən genişmiqyaslı layihələr və əldə edilən nailiyyətlər, habelə ölkəmizdə bu sahədə qlobal gündəliyə verdiyi töhfələr sayəsində beynəlxalq nüfuzunun ən yüksək səviyyədə olması sayəsində belə yüksək bir etimada layiq görülməsinin daha bir bariz nümunəsi kimi diqqəti cəlb edir.

Şübhəsiz ki, şəhərlərin dayanıqlı inkişafı, urbanizasiya, ağıllı şəhərlər və yaşayış mühitinin yaxşılaşdırılması və s. məsələlərə həsr ediləcək Forumun iştirakçıları Forumdan əvvəl və Forum zamanı Azərbaycanda şəhərsalma və memarlıq sahəsində həyata keçirilən tədbirlərlə, əldə olunan uğurlarla tanış olacaq, ölkəmizdə mövcud olan şəhər problemləri və onların həlli yolları da müzakirə obyektinə çevriləcək, məsləhətləşmələr aparılacaq, təkliflər veriləcəkdir. Fikrimizcə, Bakı şəhərində keçiriləcək bu Forum Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan olunmuş 2026-cı ilə - “Şəhərsalma və Memarlıq İli”nə mühüm töhfə olacaq, Azərbaycanın azad edilmiş ərazilərində tikinti-bərpa işlərinin sürətləndirəcək bütövlükdə ölkə üzrə yaşayış yerlərinin, şəhərlərin və urbanizasiya olunmuş ərazilərin inkişafı üçün stimul olacaq və ölkəmiz üçün bu sahədə müəyyən irs qoyacaqdır.

İnanırıq ki, aid təşkilatlar, xüsusilə elm və mədəniyyət sahəsində çalışan mütəxəssislər tarix və mədəniyyətimizə, geniş mənada keçmiş mədəni irsimizə yüksək dövlət qayğının ifadəsi olan 2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Prezident Sərəncamından irəli gələn vəzifələrin uğurlu həllinə nail olacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22 dekabr 2025-ci il. "Azərbaycan" qəzeti, 23 dekabr 2025-ci il.
2. Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 30 dekabr 2025-ci il. "Azərbaycan" qəzeti, 31 dekabr 2025-ci il.
3. Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında Azərbaycan Respublikası Prezidentinin Cərəncamı. 18 sentyabr 2025-ci il. "Azərbaycan" qəzeti, 19 sentyabr 2025-ci il.
4. Naxçıvan şəhərində yerləşən Möminə xatın türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Cərəncamı. 22 may 2025-ci il. "Azərbaycan" qəzeti, 23 may 2025-ci il.
5. "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 21 fevral 2024-cü il. "Azərbaycan" qəzeti, 22 fevral 2024-cü il
6. Səfərli H. "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Naxçıvan: "Əcəmi" NPB, 2025, 152 s.

## SUMMARY

## NOTES ON THE DECLARATION OF 2026 AS THE "YEAR OF URBAN PLANNING AND ARCHITECTURE"

**Hajıfakhraddın Safarli, Samira Turan**

As it is known, by the Decree signed by the President of the Republic of Azerbaijan, Ilham Aliyev, on December 22 , 2025, the year 2026 was declared the "Year of Urban Planning and Architecture" in Azerbaijan. The article addresses the traditions formed over millennia in the field of urban planning and architecture in Azerbaijan, as well as the tasks arising from the Decree signed by the head of state. It is noted that although the existing traditions in the field of urban planning and architecture have at times been subjected to certain deterioration, the prominent statesman Heydar Aliyev prevented these processes and implemented important measures to preserve these traditions and pass them on to future generations. This policy is being successfully continued and further developed by the President of the Republic of Azerbaijan, Ilham Aliyev. The Decree signed by the head of state is assessed as an expression of the value given at the state level to the cultural heritage created in the field of urban planning and architecture, as well as of the attention and care shown to the formation of a modern urban environment.

**Keywords:** *Azerbaijan, Nakhchivan, state, city, urban planning, architecture.*

## РЕЗЮМЕ

## ЗАМЕТКИ, СВЯЗАННЫЕ С ОБЪЯВЛЕНИЕМ 2026 ГОДА ГРАНИЧНЫМ ПЛАНИРОВАНИЕМ И АРХИТЕКТУРОЙ

**Гаджифахреддин Сафарли, Самира Туран**

Известно, что в соответствии с указом Президента Азербайджанской Республики Ильхама Алиева от 22 декабря 2025 года 2026 год был объявлен в Азербайджане «Годом городского планирования и архитектуры». В статье рассматриваются традиции, сложившиеся за тысячелетия в области городского планирования и архитектуры в Азербайджане, и задачи, вытекающие из указа главы государства. Отмечается, что, хотя существующие традиции в области городского планирования и архитектуры порой подвергаются определенным открытиям, выдающийся государственный деятель Гейдар Алиев предотвратил это и

предпринял важные меры по их сохранению и передаче будущим поколениям. Эта политика успешно продолжается и развивается Президентом Азербайджанской Республики Ильхамом Алиевым. Указ, подписанный главой государства, рассматривается как выражение ценности, придаваемой на государственном уровне культурному наследию, созданному в области градостроительства и архитектуры, а также внимания и заботы, уделяемых формированию современной городской среды.

**Ключевые слова:** *Азербайджан, Нахчыван, государство, город, градостроительство, архитектура.*